STATE CIVIL AVIATION AGENCY

SCAA-SB-006
Safety BULLETIN
Conflict Zones

Mövzu: Münaqişə zonası — Səudiyyə Ərəbistanının hava məkanı

Status:

Aktiv

Dərc olunan tarix:

12/10/2026

Qüvvədə olma tarixi:
Bu informasiya bülleteni ləğv edilənədək və ya ona hər hansı dəyişikliklər edilənədək qüvvədə hesab olunur.

İstinad sənədləri: Səudiyyə Ərəbistanının aviasiya üzrə səlahiyyətli qurumları tərəfindən dərc olunmuş aeronavtika nəşrləri, EASA-nın müvafiq nəşrləri, rəsmi məlumatlar, eləcə də DMAA tərəfindən aparılmış risk qiymətləndirilməsi və təhlillər.

Əhatə dairəsi:

Azərbaycan Respublikasında qeydiyyata alınmış hava gəmilərinin istismarçıları, hava gəmi operatorları və aeronaviqasiya xidməti təminatçıları.

Təsvir:

Səudiyyə Ərəbistanında mövcud təhlükəsizlik vəziyyətinin, regionda davam edən hərbi qarşıdurmanın və son dövrdə baş vermiş hadisələrin təhlili göstərir ki, raket və pilotsuz uçuş aparatlarından istifadə etməklə həyata keçirilən hücumlar mülki aviasiya üçün ciddi təhlükə yaradır. Hücumların coğrafi əhatəsinin genişlənməsi və aviasiya infrastrukturlarının hədəfə alınması təhlükənin yalnız Yəmənlə sərhədyanı ərazilərlə məhdudlaşmadığını göstərir.

Raket və pilotsuz uçuş aparatlarının uçuş trayektoriyaları, hava hücumundan müdafiə sistemlərinin fəaliyyəti və hücum vasitələrinin zərərsizləşdirilməsi zamanı yarana biləcək əlavə təhlükələr mülki hava gəmilərinin təhlükəsizliyinə birbaşa təsir göstərə bilər. Bu amillər, xüsusilə, hava limanlarına yaxın ərazilərdə uçuşların həyata keçirilməsi zamanı əlavə risklər yaradır.

Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Agentliyi hesab edir ki, mövcud təhlükəsizlik şəraiti Səudiyyə Ərəbistanı istiqamətində uçuşlar üçün əlavə risklər yaradır və bu risklər uçuşların planlaşdırılması zamanı nəzərə alınmalıdır.

Tövsiyələr:

Hava gəmisi istismarçılarına tövsiyə olunur:

- Səudiyyə Ərəbistanının hava məkanında uçuşlar həyata keçirərkən mövcud təhlükəsizlik risklərini nəzərə alsınlar;
- Uçuşların planlaşdırılmasından əvvəl müvafiq hava məkanı üzrə aktual NOTAM-ları və aeronavtika məlumatlarını yoxlasınlar, hava məkanına tətbiq edilən məhdudiyyətləri izləsinlər;
- Səudiyyə Ərəbistanı istiqamətində həyata keçirilən uçuşlar üzrə ətraflı risk qiymətləndirilməsini təmin etsinlər və müəyyən edilmiş risklərin azaldılması üçün müvafiq tədbirlər həyata keçirsinlər;
- Alternativ marşrutları və ehtiyat aerodromları nəzərdən keçirsinlər, həmçinin təhlükəsizlik vəziyyətinin dəyişməsi halında operativ qərarların qəbuluna hazır olsunlar;

Uçuşların təhlükəsizliyinə təsir edə biləcək hadisələr və ya təhlükələr aşkar edildikdə, bu barədə məlumatların gecikdirilmədən DMAA-ya təqdim edilməsi təmin edilməlidir.

Azərbaycan Respublikasının
Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi
tabeliyində
"Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsi